22 aprel 2022-ci il, cümə XALQ QƏZETİ



# Qarabağ əvvəlkindən də yaxşı, cəlbedici olacaq

***Azərbaycan Ordusunun işğal altında olan torpaqları azad etməsindən sonra Qarabağ yeni inkişaf mərhələsinə qədəm qoydu. Ölkəmizin geosiyasi vəziyyəti tamamilə dəyişib. İlyarm ərzində bölgədə ciddi və sürətli quruculuq işləri görülmüşdür. İşğaldan azad edilmiş ərazilərimizdə sosial-iqtisadi infrastrukturun yenidən qurulması, inşaat və turizm sahəsində işlərin sürətləndirilməsi prioritet vəzifə kimi qarşıya qoyulub. Yenidənqurma işləri daha çox yaşayış və ictimai obyektlərin tikintisi, yolların çəkilməsi kimi yeni infrastruktur layihələrində özünü göstərir. Bütövlükdə, həm region, həm də digər dünya ölkələri ilə iqtisadi əlaqələrin genişlənməsi, ölkəmizin idxal-ixrac həcminin artması, təbii olaraq, digər sahələrin də inkişafına səbəb olmaqdadır.***

***Böyük Qayıdış başlayır, bütün işlərə start verildi. Əminəm, necə ki, düşməni qısa müddət ərzində torpaqlarımızdan qovduq, cəmi 44 gün ərzində, bizim tarixi dədə-baba torpağımız olan Qarabağı da qısa müddətdə bərpa edəcəyik.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Şuşa, Füzuli, Zəngilan, Ağdam, Laçın, Kəlbəcər və Cəbrayıl rayonlarında olmaları, Horadiz – Zəngilan –Ağbənd dəmir yolunun təməlinin qoyulması, Laçın rayonunda Güləbird Su Elektrik Stansiyasının açılışı, Zəngilan rayonunda “Ağıllı kənd” layihəsinə start verilməsi, yaşıllıqların salınması, yeni əkin sahələri ilə tanışlıq göstərir ki, Prezidentimizin əzmi və qətiyyəti, uzaqgörən siyasəti sayəsində erməni faşistləri tərəfindən darmadağın edilmiş, viran qoyulmuş şəhər və kəndlərimiz, tarixi, mədəni, dini abidələrimiz tez bir zamanda bərpa olunacaq, insanlar öz ata-baba yurdlarına qayıdacaqlar. Füzuli Beynəlxalq Hava Limanının səkkiz ay ərzində tikilib istifadəyə verilməsi, Zəngilan və çətin relyefə malik Laçın rayonunda yeni aeroportların təməlinin qoyulması Ermənistan üzərində qazandığımız tarixi qələbənin təntənəsidir.

Dövlət başçımızın və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş torpaqlarımıza olan hər səfərləri istifadəyə verilmiş obyektlərin açılış mərasimlərinin keçirilməsi, yeni infrastruktur layihələrinin icrasına başlanılması, təməlqoyma, ayrı-ayrı şəhərlərin baş planlarının təsdiq, yeni innovativ layihələrin icra olunması ilə yadda qalıb. Bu səfərlər, həmçinin nəzərdə tutulmuş təmir - bərpa işlərinin yekunlaşması ilə müşayiət olunur. Bu tədbirlərin hər biri Azərbaycan dövlətinin, möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsi zamanı göstərdiyi qətiyyətin, bərpa- quruculuq işlərində də nümayiş etdirməsindən xəbər verir. Düşmən torpaqlarımızı işğal altında saxladığı müddətdə öz vəhşiliyini, barbarlığını, faşizmə xas xüsusiyyətini təsdiqləyib. Ermənilərin basdırdıqları minaların təmizlənməsi Qarabağda ümumi prosesə təsir etsə də, ancaq əhatəli və sistemli şəkildə aparılan işlər nəticəsində qarşıya qoyulan vəzifələr uğurla icra olunur. Müxtəlif istiqamətlər üzrə Şuşaya “Zəfər yolu” çəkildi , Füzuli–Şuşa, Bərdə-Ağdam, Füzul –Ağdam, Zəngilan–Füzuli – Qubadlı kimi çoxsaylı istiqamətlərdə ən müasir standartlara cavab verən avtomobil yolları inşa olunur.

Qarabağda həyata keçirilən genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri dünyanın maraq dairəsindədir. Belə çətin və mürəkkəb bir zamanda Azərbaycanın təşəbbüsləri gerçəkliyə çevirən ölkə kimi tanınması və nüfuz qazanması işğaldan azad edilmiş ərazilərimizdə müasir standartlara cavab verən genişmiqyaslı bərpa işləri çərçivəsində həyata keçiriləcək layihələrdə də özünü büruzə verir. Zəngilan rayonunda artıq tamamlanmaq üzrə olan “ağıllı kənd” layihəsi ölkəmizin gücünü bir daha göstərdi. Müharibədən yenicə çıxmış bir ölkənin tikinti-bərpa işlərini sürətlə həyata keçirməsi ölkəmizin iqtisadi qüdrətinin göstəricisidir. Beş komponenti – yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı” və alternativ enerji sahələrini birləşdirən bu layihə nin reallaşdırılması ölkəmizin beynəlxalq aləmdəki reytinqini daha da yüksəldir.




Azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı, bütövlükdə respublikamızda kənd təsərrüfatı sahələrinin inkişafına da dəstək olacaq. 30 ilin nisgili, həsrəti, acısı tədricən arxada qalır. Tarixi sahibinə qayıdan torpaqlarımızda yeni həyat başlayır və Azərbaycanın dayanıqlı inkişafı yeni mərhələyə qədəm qoyur. Həm də gələcək inkişafımız üçün geniş imkanlar yaranır.

Xalq öz Prezidentinə inanır və güvənir. Uşaqdan-böyüyə hər kəs əmindir ki, düşməni və onun havadarlarını 44 günə məğlub edən qalib sərkərdə müharibədə olduğu kimi, tez bir zamanda işğaldan azad edilmiş ərazimizin bərpa edilməsində də böyük uğurlar qazanacaq, Qarabağı cənnətə çevirəcək bu diyar yenə də abad, gözəl, inkişaf etmiş bölgə olacaq.

Qarabağda başlanan bərpa–quruculuq işləri dünyanın diqqət mərkəzindədir. Bu gün Türkiyə, İtaliya, İngiltərə, Çin, İsrail, Macarıstan və Cənubi Koreya kimi dövlətlərin şirkətləri Qarabağda görülən işlərdə iştirak edirlər. Pakistan, Səudiyyə Ərəbistanı, İran, Ukrayna, ABŞ kimi ölkələrin şirkətləri yenidənqurma işlərində iştirak etməyə maraq göstərirlər.

Həm müharibə, həm də postmüharibə dönəmində Azərbaycana dəstəyini hər zaman nümayiş etdirən Türkiyəyə məxsus olan şirkətlər ilk gündən Qarabağda görülən işlərdə fəallıq nümayiş etdirirlər. Artıq bir neçə şirkətlə əməkdaşlıq sahəsində də razılıq əldə olunub. Prezident İlham Əliyevin sərəncamına əsasən, Qaşqaçay filiz yatağı “Eti Bakır A.Ş.” şirkətinə, Elbəydaş və Ağduzdağ filiz yataqları isə “Artvin Maden A.Ş.” şirkətinə öyrənilmə, tədqiqat, kəşfiyyat, işlənmə və istismar məqsədləri üçün 30 il müddətinə müqavilə əsasında istifadəyə verilib.

İtaliyaya məxsus şirkətlər postmüharibə dönəmində də quruculuq işlərində iştirakda maraqlı olduqlarını açıq şəkildə bəyan ediblər. “Azərenerji” ASC ilə İtaliyanın “Ansaldo Energia” şirkəti arasında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsinin imzalanması italiyanın bərpa-quruculuq işlərində iştirakından xəbər verir. Razılaşmaya əsasən, Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunan 4 ədəd 110 kilovoltluq yarımstansiyanın avadanlıqlarla təchizatını məhz İtaliya şirkəti həyata keçirir. İngiltərənin nəhəng enerji şirkətlərindən olan bp Qarabağda quruculuq işlərində pay sahibidir. Energetika Nazirliyi ilə şirkət arasında imzalanmış müqaviləyə əsasən bp tərəfindən Zəngilan–Cəbrayıl bölgəsində 240 MVt gücündə günəş elektrik stansiyası tikiləcək.

Göründüyü kimi, artıq xarici ölkələrə məxsus şirkətlər bərpa-quruculuq işlərinə başlayıblar. Qarabağda görülən işlər barəsində dünyanın aparıcı kütləvi informasiya vasitələrində də məlumatlar yer alır.

İslam Əməkdaşlıq Təşkilatının Milli Xəbər Agentlikləri Birliyinin (UNA) saytında verilmiş məqalədə işğaldan azad olunmuş Qarabağ ərazisində aparılan bərpa-quruculuq işlərindən bəhs edilir.

Məqalədə qeyd olunub ki, Azərbaycan hökuməti Qarabağın sosial-iqtisadi baxımdan ölkənin əsas hissəsinə yenidən inteqrasiyasını həyata keçirir. Bu, Qarabağda yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarına da şamil olunacaq. Azərbaycan qanunlarına hörmət edən və özlərini bu ölkənin vətəndaşı kimi görən ermənilər də bu prosesdə fəal iştirak edə bilərlər. Dövlət onların bütün hüquqlarını qoruyacaq.

Məqalədə , həmçinin Qarabağ ərazisində böyük turizm potensialının olduğu da öz əksini tapıb. Qeyd edilir ki, Azərbaycan hökuməti müvafiq infrastruktur yaradaraq, 2025-ci ildə bu torpaqlara bir milyondan çox turistin cəlb edilməsini nəzərdə tutur. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə bərpa olunan enerji istehsalı üzrə layihələr, “ağıllı kənd” konsepsiyası həyata keçirilir. Qeyd olunub ki, Şuşa, eyni zamanda, diplomatiya mərkəzinə də çevrilir. Bu yaxınlarda orada Azərbaycan – BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantının keçirilməsi bunun bariz nümunəsidir.

Qarabağda və Şərqi Zəngəzurda bütün işlər planlı şəkildə görülür. Dövlət başçmız bu ilin birinci rübünün yekunlarına həsr olunmuş iclasdakı nitqində də bu məsələyə münasibət bildirdi. Dedi ki, ölkə üzrə, bütövlükdə, investisiya proqramının icrası nəticəsində işlər plan üzrə gedir və hər bir bölgədə vətəndaşlar bunu görürlər: “O ki qaldı, Qarabağ və Şərqi Zəngəzurdakı işlərə, orada hələ ki, heç kim yaşamır. Ona görə biz orada görüləcək işləri mərkəzləşdirilmiş qaydada etməliyik və edirik. Keçən il genişmiqyaslı abadlıq-quruculuq işlərinə start verildi, böyük infrastruktur layihələri icra edildi”.

Dövlət başçımız bu ilin sonuna qədər və növbəti bir-iki il ərzində görüləcək işlərlə, o cümlədən şəhərlərin baş planları ilə bağlı tapşırıqlarını verdi. Məlum olduğu kimi, hazırda Ağdam və Füzuli şəhərlərinin baş planları təsdiqlənib və görülən işlərə bunun əsasında start verilib. Ölkə Prezidenti görülmüş işlərin gedişi ilə də tanış olub. Prezidentin tapşırığı əsasında işğaldan azad edilmiş digər şəhərlərin də baş planlarının təsdiqlənməsi bu yaxınlarda öz həllini tapmalıdır. Dövlət başçımız bildirdi ki, Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan və Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin baş planları hazırlanmalı, bu il təsdiq olunmalı və ondan sonra Qarabağ və Şərqi Zəngəzura aid olan investisiya proqramında əlavələr edilməlidir.

Dövlət başçımızın müşavirədəki nitqindən də məlum oldu ki, Qarabağın əvvəlki şöhrəti və görkəmi qaytarılır. Geniş miqyas almış bərpa – quruculuq işləri bölgənin əvvəlkindən də yaxşı, cəlbedici olacağından xəbər verir. Çünki bütün işlər planlı şəkildə, dünya standartları səviyyəsində aparılır. Elektrik xətlərinin, yol infrastrukturunun əsaslı şəkildə yenilənməsi, qurulması, yaşayış binalarının, məktəb, səhiyyə ocaqlarının müasir tələblər səviyyəsində qurulması, beynəlxalq dəhlizlərin açılması Qarabağa turist axınını gücləndirəcək. Təbii ki, bunlar Zəngəzur dəhlizinin açılması zərurətini yaradır. Ölkə Prezidenti qəti mövqeyini bildirdi: “Zəngəzur dəhlizi açılmalıdır. Zəngəzur üzərindən həm dəmir yolu, həm avtomobil yolu məsələsi ilə bağlı aprelin 6-da Brüsseldə geniş fikir mübadiləsi aparılmışdır. İran üzərindən yolun Naxçıvana çəkilməsi və oradan dünya bazarlarına çıxarılması layihəsi də artıq hazırlanır. Ümid edirəm ki, yaxın gələcəkdə təməlqoyma mərasimi də keçirilə bilər və beləliklə, yeni beynəlxalq nəqliyyat dəhlizi açılacaqdır”.

Prezident qarşıda duran digər prioritet vəzifələr barəsində də məlumat verib: “ Keçmiş məcburi köçkünləri qaytarmaq üçün kompleks tədbirlər görürük. Yaşayış binaları, infrastruktur, iş yerləri, kənd təsərrüfatı ilə məşğul olmaq imkanları, sənaye parkları - biz planlı şəkildə bu işləri görəcəyik. Bu, ancaq azad edilmiş torpaqlarda bu il görüləcək işlərin siyahısıdır və əminəm ki, bütün planlar həyatda öz əksini tapacaq. Biz istədiyimizə nail olacağıq”.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***